# Kənd təsərrüfatına dövlət qayğısı məhsul istehsalına güclü təkan verir



Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş aqrar islahatların onun layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkənin kənd təsərrüfatının inkişafında həlledici rol oynayır. Xalqın milli maraqlarına əsaslanan məqsədyönlü islahatların ardıcıllıqla həyata keçirilməsi ölkəmizin qüdrətini və imicini daha da artırmışdır. Respublikamızda aparılan uğurlu və dinamik sosial-iqtisadi siyasət nəticəsində artıq bir neçə ildir ki, aqrar sahədə daxili istehsal hesabına əhalinin əksər kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi mümkün olmuşdur.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 23 oktyabr 2004-cü il tarixli "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 23 yanvar 2007-ci il tarixli, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 25 avqust 2008-ci il tarixli sərəncamları aqrar bölmənin inkişafında müstəsna rol oynayır. Prezident cənab İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "Bu il "Kənd təsərrüfatı ili"dir. ... Kənd təsərrüfatının inkişafı, artımı həm sosial, həm də iqtisadi sahədir. Biz çalışırıq və çalışacağıq ki, özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin edək. Biz bu hədəfə yaxınlaşırıq. Burada artıq qeyd edildi ki, 30 iri fermer təsərrüfatı yaradılmışdır. 40 min hektar yeni torpaq sahəsi dövriyyəyə buraxılmışdır. Taxılçılıq üzrə iri fermer təsərrüfatlarında hər hektardan 50-60 sentner məhsul götürülür. Bu çox yüksək göstəricidir. Nəzərə alsaq ki, son illərə qədər bizdə orta məhsuldarlıq 25-26 sentner idi. Bu il isə orta məhsuldarlıq 30 sentnerdən çoxdur. Bu da rekord göstəricidir. Ona görə ərzaq təhlükəsizliyi məsələlərinin həlli üçün əlavə tədbirlər görüləcək. İndi yeni əkin sahələri dövriyyəyə buraxılacaq. Yaradılmış iki böyük su anbarının - Taxtakörpü və Şəmkirçay su anbarlarının hesabına on minlərlə hektar torpağa suyun verilməsi nəzərdə tutulur".

Əlbəttə ki, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Dövlətimiz bu baxımdan ölkə əhalisinin ərzaqla etibarlı təminatına dair çoxsaylı tədbirlər həyata keçirir və ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı Dövlət proqramlarını reallaşdırır.

Məlum olduğu kimi, ölkə Prezidenti cənab İlham Əliyev 12 yanvar 2015-ci il tarixdə bu ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Azərbaycan Respublikasında həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradılmışdır. Aqrar sektorda əsaslı dəyişikliklər baş vermiş, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşmış, normativ-hüquqi baza təkmilləşdirilmişdir. İdarəetmə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sistemi tətbiq ediləcəkdir.

Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir".

2015-ci ilin ötən doqquz ayı kənd təsərrüfatı üçün olduqca uğurlu olmuşdur. Belə ki, DSK-nın məlumatına görə, cari ilin yanvar-sentyabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 4813,0 milyon manat təşkil etmişdir ki, onun da 2097,1 milyon manatı heyvandarlıq, 2715,9 milyon manatı isə bitkiçilik məhsulları olmuşdur. Ölkənin torpaqlarında dənli və dənli paxlalıların yığımı əsasən başa çatmışdır. Oktyabr ayının 1-nə kimi dənli və dənli paxlalı bitkilərin əkin sahəsinin 99,9 faizi, yaxud 914 min hektarı biçilib və həmin sahələrdən 2782,4 min ton taxıl məhsulu götürülmüşdür. Hektarın orta məhsuldarlığı əvvəlki ilə nisbətən 7,6 sentner artaraq 30,4 sentnerə yüksəlmişdir. Mövsüm ərzində sahələrdən 822,3 min ton kartof, 1172,7 min ton tərəvəz və 481,5 min ton bostan məhsulları toplanmışdır. Əvvəlki ilin müvafiq dövrünə nisbətən kartof istehsalı 1,7 faiz, tərəvəz istehsalı 4,2 faiz və bostan məhsulları istehsalı 9,5 faiz artmışdır. Bu ilin doqquz ayında meyvə, üzüm və çay yarpağı istehsalı keçən ildəki səviyyədən bir qədər artıq olmuşdur. Belə ki, hesabat tarixinə 533,4 min ton və yaxud keçən ildəkindən 1000 ton çox meyvə və giləmeyvə, 111,7 min ton üzüm, 556,5 ton yaşıl çay yarpağı məhsulu toplanmışdır. Ötən doqquz ayda diri çəkidə 331,4 min ton mal-qara və quş əti, 1469,5 min ton süd, 1157,4 milyon ədəd yumurta və 16,5 min ton yun istehsal edilmişdir.

Bütün bunlar onu göstərir ki, son illərdə kənd təsərrüfatına dövlət qayğısının artması respublikamızda məhsul istehsalına güclü təkan verib. Odur ki, ildən-ilə məhsul istehsalı artır. Rəhbəri olduğum müəssisə tərəfindən subtropik bitkilər, əsasən də badam, zeytun, əncir, tərəvəz və digər məhsullar yetişdirilərək paytaxt sakinlərinə çatdırılır. Dövlətimiz tərəfindən təşkil olunan kənd təsərrüfatının satış yarmarkalarında mütəmadi olaraq məhsullarımızla şəhər əhalisini təmin etmişik. Paytaxt sakinləri bu yarmarkaların davamlı olmasını arzulayır. Elə bu günlərdə paytaxtda təşkil olunmuş bal yarmarkası da sakinlər tərəfindən rəğbətlə qarşılanmışdır.

Artıq 2015-ci ilin və "Kənd təsərrüfatı ili"nin başa çatmasına iki ay qalır. Bütün qüvvə və bacarığımızı səfərbər etmişik ki, ili uğurla başa vuraq. Çalışırıq ki, "Kənd təsərrüfatı ili"nə öz töhfəmizi verək. Bir məsələni də qeyd etmək istərdim ki, bu gün regionlarımız sürətlə inkişaf edir. İnfrastruktur layihələri uğurla icra edilir. Kənd yolları, içməli su, kanalizasiya layihələrinin icrası uğurla aparılır. Həmçinin yeni iş yerləri yaradılıb. Ötən 9 ayda 67 min iş yeri yaradılıb. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 9 ay ərzində 170-dən çox sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisəsi fəaliyyətə başlamışdır.

Bu gün öz görkəmini büsbütün dəyişən rayonlardan biri də Abşerondur. Abşeronda əvvəlki rəhbərliyin dövründən başlayaraq bütün dövlət proqramları uğurla icra olunmuşdur. Hazırda da bütün məsələlər RİH-in başçısı İ.Gülməmmədovanın diqqət mərkəzindədir. Rayonun elə bir guşəsi yoxdur ki, orada canlanma olmasın. Bütün bunlar dövlət başçısının Abşeron və abşeronlulara olan diqqət və qayğısının bariz nümunəsidir.

Biz dövlətimizin başçısı cənab İlham Əliyevin daxili və xarici siyasətini dəstəkləyirik. Çünki bu siyasətə alternativ yoxdur. Məqsədyönlü daxili və xarici siyasət bir-birini tamamlayır. Bu gün tam əminliklə söyləmək mümkündür ki, müstəqil Azərbaycanı daha xoşbəxt gələcək gözləyir.

**Hüseyn SEYİDOV,**
**Maştağa Subtropik Kənd Təsərrüfatı Müəssisəsinin direktoru, respublikamızın əməkdar kənd təsərrüfatı işçisi.**